https://doi.org/10.59849/3006-1342.2025.1.34
UOT 94(479.24).

*Solmaz Adil qızı Əzimova*
*tarix üzrə fəlsəfə doktoru*
*Bakı Dövlət Universiteti*
*Bakı ş.*
*E-mail: solmazazimova2021@gmail.com*

# AZƏRBAYCAN SƏFƏVİ HÖKMDARI ŞAH II ABBASIN DÖVRÜNDƏ MƏDƏNİ HƏYAT

*Qızılbaş Səfəvilər xanədanının hakimiyyəti dövründə imperiya ərazisində quruculuq işləri daim aparılmış, hər bir hökmdar inşa etdirdiyi binalar və memarlıq nümunələri ilə tarixdə və yaddaşlarda qalmağa cəhd göstərmişdi. Səfəvilər xanədanına mənsub memarlıq abidələrinin özünəməxsus xüsusiyyətləri olmuşdu. Qonşu Osmanlı və Moğol memarlığından fərqli olaraq Səfəvi tikinti üslubu xalqa etimadı və yaxınlığı zərif bəzək işləri ilə seçilmişdi. Şah saraylarının hündür divarla əhatələnməsi praktikası tətbiq edilmir, əksinə şəhərin ən qızğın, insanların toplu olduğu yerlərdə inşa edilirdi. Bununla Səfəvi xanədanı nümayəndələri özlərinin xalqa yaxın olduqlarını, onlara inanıb etimad nümayiş etdirdiklərini sübut etməyə çalışırdılar. Maraqlıdır ki, hələ Ərdəbil hakimliyi dövründə belə qızılbaş şeyxlər mədəniyyətə yüksək qiymət verir, incəsənət, ədəbiyyat xadimlərini öz ətraflarına cəm etməyə səy göstərir, öz iqamətgahlarında hər cür şərait yaradırdılar. Şah II Abbas (1642-1666) dövrünə nəzər salsaq, bu dönəmdə bərpa-tikinti işlərinə xüsusi diqqət yetirildiyini görərik. Dövlətin sabitlik dönəmində olması, eləcə də hərbi əməliyyatlardan uzaq siyasətin yürüdülməsi mədəniyyət sahələrinin hər birinin tərəqqisinə səbəb olmuşdu. Mərkəzi hakimiyyət, xüsusilə də hökmdarın bu tədbirləri himayə etməsi, xüsusi diqqət göstərməsi memarlıq abidələrinin daha nəfis şəkildə yaradılmasına gətirib çıxarmışdı.*

*Açar sözlər:* Azərbaycan, Səfəvilər sülaləsi, Şah II Abbas, bərpa-tikinti işləri, Qəzvin, İsfahan

## *Giriş*

Azərbaycan Səfəvilər sülaləsinin hakimiyyətə gəlişi ilə bölgədə siyasi, iqtisadi, sosial və mədəni cəhətdən yeni durum formalaşdı. Şiə bayrağını əllərində əsas götürən Qızılbaşlar sülaləsi mədəniyyətin bütün sahələrinə yeni baxış, fərqli yanaşma gətirdilər. İncəsənətə, ədəbiyyata, memarlığa yüksək dəyər verən Qızılbaş hökmdarlarının hər biri mədəniyyət sahəsində yeniliklərə imza atır, bunun üçün öz ətraflarına ziyalı şəxsləri toplayır, imperiyanın kənarlarında yaşayan incəsənət xadimlərini, şairləri, rəssam və sənətkarları paytaxta dəvət edirdilər. Hər bir hökmdar mədəniyyətə münasibəti ilə, həm də yaratdığı, bərpa etdirdiyi abidələr ilə tarixdə qalmağa çalışırdı. Tikinti işləri, yeni yolların çəkilməsi Səfəvilər sarayında həmişə gündəmdə olub müzakirə edilən məsələlərdən idi. Belə ki, tez-tez müharibələr meydanına çevrilən, dağıntılara məruz qalan, eləcə də təbii fəlakətlərdən əziyyət çəkən əhalinin narazılıqlarına son qoymaq məqsədilə quruculuq və bərpa işləri bütün hökmdarların vaxtında həyata keçirilirdi. Şah II Abbasın hakimiyyəti dövründə (1642-1666) də Azərbaycan Səfəvilər dövlətinin müxtəlif ərazilərində tikinti-quruculuq işləri aparılmış, məmləkətin abadlaşdırılması üçün xeyli tədbirlər həyata keçirilmişdi. Bu səbəbdən də, Şah II Abbas daha çox quruculuq işləri ilə tarixdə iz qoymuşdu. ABŞ tarixçisi G.Gartveytin gəldiyi nəticəyə əsasən "hərəmxana divarları arasında böyüməsinə rəğmən Şah II Abbas özü-özlüyündə

kifayət qədər bacarıqlı bir hökmdar hesab edilir” [13, s.165]. Azərbaycan tarixçisi A.Bakıxanov da özünün “Gülüstani-İrəm” əsərində bu qənaəti təsdiqləyən fikir irəli sürür: “ Kim Calallı və sərvətli bir padişah olub səltənət işlərini qurmağı da yaxşı bacarırdı” [7, s.92].

Gördüyümüz kimi, Şah II Abbasın hakimiyyət illəri dövlətin durğunluq dövrünün əvvəllərinə təsadüf etsə də, bacarıqlı hökmdar kimi özünü göstərə bilmişdir. Bəzi tarixçilər Şah I Abbasdan sonra fərasətli bir hökmdar olmadığını qeyd etsələr də, mənbələrdəki məlumatlar bu fikri təkzib edirlər. Ümumiyyətlə, Şah II Abbasın uşaqlıq illəri və təlim-tərbiyəsi haqqında mənbələrdə demək olar ki, məlumat yoxdur. Buna səbəb Şah I Abbas dövründən başlayaraq taxta namizəd şahzadələrin əvvəlcədən bilinməməsi, onların ümumi şəkildə digər şahzadə və saray adamlarının övladları ilə birgə hərəmxana divarları arasında böyüdülməsi idi. Belə bir qərarın verilməsində məqsəd taxt-tac uğrunda saraydaxili siyasi çəkişmələrin qarşısını almaq idi. Lakin, bu qərar Səfəvi səltənəti üçün heç də müsbət nəticələnmədi. Belə ki, hərəmxanada böyüdülən, hərbi və mülkü idarəçilikdən kənarlaşdırılan, heç bir hökmranlıq təcrübəsi olmayan şahzadələr birdən-birə taxt sahibi olub, böyük bir imperiyanın hökmdarı elan edildikdə belə bir “yükün altında boğulur”, vəzir-vəkillərin təsiri altına düşür və bacarıqsızlıqdan dövlət işlərini kimlərinsə üzərinə atmaqla, eyş-işrət ilə başlarını qatırdılar. Düzdür, Şah II Abbas öz lələsinin rəhbərliyi altında rəssamlıq və xarratlığı öyrənmiş, at minməkdə, atıcılıqda, ox atmaqda, çövkən oyununda məharət qazanmışdı. O, dövrünün böyük bilim adamı və məşhur seyidi Mir Murtuza İsfahanini özünə müəllim seçir. Qısa müddətdə yaxşı savad qazanır. Belə ki, onun yazmaq və oxumağı öyrənməsi altı aydan çox çəkməmişdi. O, məharətli oxçu olan qulam Əhməd bəy yüzbaşının nəzarətində ox atmağı da çox yaxşı öyrənmişdi [12, s. 13]. Hesab edirik ki, aldığı tərbiyə və təlimin nəticəsi olaraq, Şah II Abbas hakimiyyətə gəldikdən sonra xarici və daxili siyasətinə diqqət etsək, onun ədalətli və bacarıqlı bir hökmdar kimi xalqın qayğısını təmin edəcək qərarlar verməsini, mədənniyyətə yüksək qiymət verməklə ölkənin tərəqqisini təmin etməsini görə bilərik.

## 1. Səfəvi hökmdarı Şah II Abbasın dövründə həyata keçirilən mədəni tədbirlər-memarlıq nümunələri.

Səfəvi hökmdarı Şah Abbas sanidən çoxlu tarixi memarlıq abidələri də yadigar qalmışdır. İsfahanda dünya şöhrətli, uca və möhkəm Ala Qapı imarəti, Səadətabad adlı bağ və imarət, İsfahandakı Çehel-sütun imarəti, Zayəndərud bəndi, şəbəkəli Tovuzxana imarəti, Xəlvətxana adlı imarətin hamısı ondan yadigar qalan tarixi abidələrdir. O, eyni zamanda Zayəndərud çayı üzərində körpü tikdirmiş, İsfahanın tarixi Cümə məscidini təmir etdirmişdi. İraqda da bir neçə imamzadə kompleksini yüksək səviyyədə təmir etdirmişdi ki, onlar da Səfəvilər dövrünün yadigarları olan gözəl sənət əsərləridir [12, s. 14-15]. Məhəmməd Tahir Vəhidin “Abbasnamə” adlı salnaməsində bu tədbirlərin hamısı haqqında olmasa da, bəziləri barədə maraqlı məlumatlar qorunub saxlanılmışdır. H.1052-ci ildə (1642) Şah II Abbas Qəzvin şəhərinə gələrkən buradakı «Çehel-sütun» sarayının təmir olunması haqqında göstəriş vermişdir [17, s.91]. 1555-1598-ci illərdə Səfəvilər imperiyasının paytaxt şəhəri olmuş Qəzvin Qızılbaşların əsas siyasi mərkəzlərindən birinə çevrilmişdi. Şah I Təhmasib dövründə (1524-1576) Səfəvilərin paytaxtının Qəzvinə köçürülməsi zamanı hökmdar tərəfindən köhnə binaların bərpası və yenilərin tikintisi üçün qərar verilmiş, şəhərdə tez bir zamanda bərpa-tikinti işləri aparılmış, ərazisi genişlənmiş, əhalinin sayı artmışdı. Hətta, 1598-ci ildə Şah I Abbas (1587-1629) tərəfindən paytaxt şəhəri İsfahana köçürülərkən Qəzvin mərkəz olaraq öz siyasi, iqtisadi və ticari əhəmiyyətini itirməmişdi. Təbriz, Tehran və Xəzər dənizi sahillərini birləşdirən karvan yolunun, Kiçik Asiyayadək uzanan yolların, o cümlədən Cənubi Azərbaycan torpaqlarından şimala doğru, Dağıstan, eləcə də Gürcüstan, Qara dəniz, Avropanı birləşdirən əsas tranzit ticarət yollarının Qəzvindən keçməsi şəhərin ticarət əhəmiyyətinin daha da artmasına və Səfəvilər üçün xüsusi önəm daşımasına səbəb olmuşdu. Bu dövrdə

karvan yollarının mövcud olması, bu yollardan istifadəyə görə əldə edilən gəlir dövlət xəzinəsinin mədaxil payının əsasını təşkil edirdi.

Bir qayda olaraq, hökmdarlar dövlətin paytaxt şəhərinin abadlaşdırılmasına xüsusi diqqət ayırdıqlarından Şah II Abbasın dövründə də siyasi mərkəz kimi İsfahana xüsusi dövlət qayğısı nümayiş etdirilmişdi. Dövrün müasirləri olan tarixçilər Məhəmməd Tahir Vəhid və Molla Kamal hicri 1054-1057-ci illərdə (m.1644-1647) İsfahanda dövlətxana binasının tikintisi haqqında məlumatlar vermişlər. Çehel-sütun adlı dövlətxana binasının qübbələri qızıla tutulduğuna görə dünyanın günəşi hesab edilirdi [17, s.91]. Hələ Şah I Təhmasib dövründə tikilən bu sarayın damının şişuclu olmasına görə əhali arasında papağa bənzədilərək "firəng papağı" adı verilmişdi. Tağlarla örtülü olan oyuqlar saraya xüsusi görünüş vermiş və bu arkadaya hər tərəfdən portallar vasitəsilə daxil olmaq mümkündür. Sarayın divarları, o cümlədən eyvanı tarixi hadisələri əks etdirən müxtəlif rəsm əsərləri, xəttatlıq nümunələri və freskalar ilə bəzədilmiş və hələ də qalmaqdadır. Divarlarda 1611-ci ildə Buxara əmirinin şərəfinə ziyafət, 1514-cü ildə baş vermiş Çaldıran döyüşündən, 1510-cu ildə olmuş Mərv döyüşündən səhnə və Səfəvilər sülaləsinin uğurlarını əks etdirən tarixi hadisələrin təsvirləri əks olunmuşdu. Saray binasından Səfəvilər xanədanına aid mərasim və tədbirlərin həyata keçirilməsi, eyni zamanda elçi, səfir və xarici dövlət nümayəndələrinin qəbulu üçün nəzərdə tutulmuşdu. Sarayda həm Səfəvi hökmdarı Şah II Abbas, həm də Qacarlar dönəmində bərpa işləri aparılmış, təmir edilmişdir. Bina öz gözəlliyi ilə digər memarlıq abidələrindən çox fərqlənir, yüksək sənətkarlıq nümunəsi olaraq qiymətləndirilir və müasir dövrdə xəttatlıq muzeyi və sənət mərkəzi olaraq fəaliyyət göstərməkdə davam edir.

Səfəvilərin paytaxt şəhəri olan İsfahan şəhərində «Ala qapı» adı ilə məşhur olan saray Səlcuqilər dövrünün (XI əsr) memarlıq yadigarı hesab edilir, belə ki, səlcuq-oğuz tikinti üslubunun izlərini tam şəkildə görmək mümkündür. Şah I Abbas dövründə tikintisinə başlanan saraya Şah I Səfi (1629-1642) dönəmində bir sıra yan tikililər əlavə edilmiş və Şah II Abbasın hakimiyyətləri dövründə isə həmin sarayın uçub-dağılmış hissələri təzədən bərpa etdirilmişdi. Həmin sarayın giriş darvazalarının qapıları Şah I Abbasın əmri ilə Nəcəf şəhərində düzəldilmişdi. Məhz bu qapıya görə saray «Ali qapı», yəni hündür, uca qapı adı ilə tarixə düşmüşdü. Şah II Abbas isə 1068-ci ildə (1657) həm yay, həm də qış üçün İsfahanda yeni bir saray binasının tikilməsi barədə göstəriş vermişdi. Bu bina tikilib qurtardıqdan sonra onu «Xəlvətxana» adlandırmışdılar [18, s.97, 100, 105; 16, s. 41, s. 75; 17, s.242). H.1072-ci ildə (1665) Şah II Abbasın əmri ilə İsfahanda təmirə başlanmış iki məsciddən biri cümə məscidi idi və onların təmir-bərpası qısa müddətdə başa çatdırılmışdı [17, s. 306]. R.Seyvori bu məlumatı təsdiqləyərək qeyd edir: "Şah II Abbas İsfahanda Çehel-sütunu və bazar yaxınlığındakı Cümə məscidini və Şah I Abbas tərəfindən inşa edilmiş Şah məscidini təmir etdirdi" [14, s.255]. Gördüyümüz kimi, Şah II Abbasın dövründə nəinki yeni binaların tikilməsi, eləcə də dağılmış, sökülmüş tikililərin bərpasına diqqət edilirdi.

Şah II Abbas dövrünün əsas qaynağı olan «Abbasnamə» əsərinin məlumatına görə h.1070-ci ildə Şah II Abbas Zayəndərud çayı üzərində salınmış yeni körpüyə yaxın olan Səadətabad bağında xüsusi layihə əsasında dövlətxana binası tikdirmək qərarına gəlmişdi. Həmin bağın ətrafında isə yəhudilər və gəbrlər məskunlaşmışdılar. Şahın göstərişi əsasında həmin sakinlər üçün ayrıca torpaq sahəsi ayrılaraq buradan köçürüldülər. Yəhudi və gəbrlərin məskunlaşdığı əvvəlki yerlər nüfuzlu dövlət xadimlərinə, əmirlərə paylanıldı və onların hər biri öz imkanları daxilində orada imarətlər tikdilər. Həmin ərazidə tikinti işləri başa çatdıqdan sonra yaranmış yeni qəsəbə bağın adına uyğun olaraq Səadətabad adı ilə məşhur olmuşdu [17, s.249-250]. Səadətabad bağları hələ Şah I Təhmasib tərəfindən salınmış, paytaxt Qəzvinə köçürüldükdən sonra ərazisi genişləndirilmiş və bir neçə dövlət əhəmiyyətli binalar tikilmişdir. Şah II Abbas dövründə Qəzvinin xanədan üçün əhəmiyyəti nəzərə alınaraq burada

dövlətxana binası və əlavə tikililər inşa edilmişdir. Əlavə binalarda xanədana məxsus xəzinə, cəbbəxana, qonaq evləri, hərəmxana və s. yerləşirdi. Qeyd edək ki, Şah II Abbasın tacqoyma mərasiminin Qəzvində keçirilməsi bu şəhəri hökmdar üçün mühüm mahiyyət daşımasına səbəb olmuşdu, eləcə də XVII əsrin 40-60-cı illərində Qızılbaş sülalə üzvlərinə dair bir çox tədbirlərin məhz bu şəhərdə keçirilməsi qaynaqlarda göstərilmişdi.

Cin Gartveytin qeydinə əsasən, "Şah II Abbas Çehel-sütunu və məşhur Hacı körpüsünü inşa etdirmişdi" [13, s.166] Hacı körpüsü Teymurilər dönəmində tikilsə də, XVII əsrədək demək olar ki, dağılmış və artıq istifadəsiz qalmışdı. Həmin bu Şah körpüsü Şah II Abbas tərəfindən köhnə körpü tamamilə sökdürülərək yenidən inşa etdirilmiş, 33 arkadan ibarətdir. Körpünün üzərində şah və onun ailə üzvləri, həmçinin digər saray adamları üçün otaqlar da inşa edilmişdi. Körpü ancaq çayı keçmək üçün nəzərdə tutulmur, kənd təsərrüfatının inkişaf etdirilməsi, əkin sahələrinin suvarılması və şəhərin abadlaşdırılması üçün tikilmiş, eyni zamanda istirahət, əyləncə məclislərini seyr etmək üçün münasib hesab edilirdi. Şah və saray adamlarının asudə vaxtlarını daha maraqlı etmək məqsədilə müxtəlif heyvan növlərinin saxlanması haqqında mənbələrdə müxtəlif faktlar göstərilmişdir. Şah II Abbasın göstərişi ilə Zayəndərud çayı üzərindəki Şah körpüsü ətrafında zoopark salınması, ətrafına hündür, yaraşıqlı dirəklər basdırılaraq hasarların çəkilməsinə başlanılmışdı. Zooparkın ətrafına hündür hasarların çəkilməsi heyvanxanada saxlanılan tovuz, qırqovul, digər quşların təhlükəsizliyinin təmin olunması, onların sərbəst yaşaması məqsədini daşıyırdı. Şah II Abbas həmin zooparka tovuz quşlarının gətirilməsi üçün Gürcüstan valisinə tapşırıqlar vermiş, bütün bu işlər üzərində ümumi nəzarəti isə qullar ağası, əmir şikar, sərdare ləşkər Allahverdi xana və Kuhgiluyə bəylərbəyinə həvalə etmişdi [17, s.256].

**2. Şah II Abbas dönəmində həyata keçirilən sosial tədbirlər.**

Şah II Abbas təriqət adamlarına zahid və sufilərə həmişə qayğı və ehtiramla yanaşır, hörmət əlaməti olaraq sarayda daima diqqət mərkəzində olur, xoş qarşılanırdılar. R.Seyvorinin qeydlərinə əsasən, Şah II Abbas dini məsələlərə ümumi olaraq tolerant şəkildə yanaşır, hətta katoliklərə sərbəst fəaliyyət göstərməyə izn vermişdi [14, s. 255]. Buna görə də h.1070-ci ildə (1659) onların məskunlaşdırılması üçün xüsusi binanın inşa etdirilməsi qərara alınmışdı. Bu məqsədlə Zayəndərud çayının kənarında yerləşən qorçubaşının atası Mehrab xanın bağının satın alınması nəzərdə tutulmuşdu. Alqı-satqı üçün Mehrab xana müraciət olunmuş, o, alicənablıq göstərərək bağ sahəsinə görə pul almaqdan imtina edərək onu sərkare xasseyi şərifə peşkəş etmişdi. Mehrab xanın bu addımı Səfəvilər dövlətində təriqət adamları, zahid və sufilərə bəslənilən xüsusi münasibət, ehtiramla yanaşı, Səfəvi hökmdarı Şah II Abbasın böyük nüfuzundan irəli gəlirdi. Bağ sahəsi sülalə mülkiyyətinə keçirildikdən sonra orada çoxlu otaqları olan xüsusi bina tikilmiş və bu müqəddəs təkyəyə vəqf əmlakı da bağışlanmışdı. Zahid və sufilərin xərclərinin ödənilməsi üçün nəzərdə tutulmuş həmin vəqf əmlakının idarə olunması üçün Mirzə Məhəmməd Təbib mütəvəlli təyin edilmişdi [17, s.256]. Dinin Səfəvilər üçün xüsusi mahiyyət daşıdığını nəzərə alsaq, Şah II Abbas dövründə sufi-dərvişlərə xüsusi münasibət bəslənilməsi, eləcə də dövlətin din siyasətinin təbliğatçıları və əsas dayaq zümrələri olaraq din adamlarının saraya, dövlətxanaya yaxın yerdə yerləşdirilməsi də anlaşılandı.

İlkin mənbələrin araşdırılması Şah II Abbas dönəmində ədalətli siyasət yürüdüldüyü, əhalinin narazılıqlarının aradan qaldırılması üçün tədbirlərin görüldüyünü, bir sıra qərar və sərəncamların verilmədiyini izləyirik. Hökmdar səviyyəsində hakimiyyət nümayəndələrinin dövlətin təbəələrinə qarşı ədalətli siyasət yürüdülmüş, əhalinin ərizə və şikayətlərinə dərhal reaksiya verilmiş, məmur özbaşınalıqlarına qarşı mübarizə aparılmışdı. R.Seyvorinin məlumatına əsasən "Şah II Abbas həftənin üç günü divani-ədalətdə əsgər və mülki insanların

şikayətlərinə baxır, həftənin iki gününü isə imperiyanın dörd bir yanından gələn şikayətləri dinləyirdi" [14, s.254-255]. Hökmdarın ədalətli davranışları sosial-iqtisadi həyatın digər sahələrinə də müsbət mənada siraət etmiş, dövlətin qısamüddətli olsa belə inkişafına təkan vermişdi.

*Nəticə*

Beləliklə, Şah II Abbasın saray tarixçisi olan Məhəmməd Tahir Vəhidin «Abbasnamə» əsərinin materiallarının araşdırılması, həmçinin digər tarixi əsərlər ilə müqayisəli təhlili göstərir ki, Şah II Abbasın hakimiyyəti dövründə Səfəvilər dövlətinin sosial-iqtisadi inkişafının təmin edilməsi istiqamətində mərkəzi hakimiyyət tərəfindən mümkün bütün tədbirlər həyata keçirilmiş, xüsusilə də süni suvarma sistemlərinin çəkilməsinə böyük qayğı nümayiş etdirilmişdir. Bu tədbirlər vasitəsilə həm kənd təsərrüfatı sahələrinin inkişafı, həm də sosial zümrələrin tərəqqisinə nail olunmuşdu. Dolayı yolla hər hansı narazılıqların qarşısı alınır, xəzinə gəlirlərinin daimi mədaxili təmin edilmiş olurdu. XVII əsrin 40-60-cı illərində imperiyanın hər bir bölgəsinə diqqət ayrılmış, bütün dövlət ərazilərində, həmçinin Təbriz, Qəzvin, Tehran şəhərləri, xüsusilə də paytaxt İsfahan və onun ətrafında geniş tikinti-quruculuq və abadlıq işləri aparılmışdı.

ƏDƏBİYYAT


1. Ağayev R.Ə. Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri (XV-XVI əsrlər). Bakı: Kür, 2004, 151 s.
2. Aşurbəyli S. Bakı şəhərinin tarixi. Bakı: Avrasiya Press, 2006,
3. Azərbaycan tarixi (ən qədim zamanlardan XXI əsrin ilk onilliklərinə qədər). Dosent M.Q.Abdullayevin elmi redaktəsi ilə. Bakı: Bakı Universiteti nəşriyyatı, 2014, 391 s.
4. Azərbaycan tarixi üzrə qaynaqlar. S.S.Əliyarlı və Y.M.Mahmudovun redaktəsi ilə. Bakı: Azərbaycan Universiteti, 1989, 328 s.
5. Azərbaycan tarixi. 7 cilddə, III cild. Bakı: Elm, 1999, 584 s.
6. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci ilə qədər. Redaktor: Süleyman Əliyarlı. Bakı: Azərbaycan, 1996, 872 s.
7. Bakıxanov A. Gülüstani-İrəm. Bakı: Möminin, 2001, 287 s.
8. Bayramlı Z., Əzizli B. Azərbaycan Evliya Çələbinin 1654-cü il «Səyahətnamə»sində. Bakı: Azərbaycan, 2000, 174 s.
9. Bayramlı Z.H. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk-qızılbaş əyanlarının rolu. Bakı: Avropa, 2015, 348 s.
10. Bayramlı Z.H. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə sistemi. Bakı: ADPU, 2006, 258 s.
11. Bayramlı Z.H., Şabiyev B.Ş. Azərbaycan Səfəvi dövləti (XVI-XVII əsrlər). Bakı: "Avropa" nəşriyyatı, 2016. 344 səh.
12. Bayramlı Zabil. II Şah Abbasın daxili və xarici siyasəti (Məhəmməd Tahir Vəhidin "Abbasnamə" əsəri üzrə): Tarix və onun problemləri, Bakı, 2010, №3, s.12-16, http://static.bsu.az/w8/Tarix%20ve%20onun%20problem/2010%20%20%203/2%20zabil%20bayram.pdf
13. Gene R. Garthwaite. İran tarihi. Pers imparatorluğundan Günümüze... İngilizceden çeviren Fethi Aytuna. İstanbul: İnkilap Kitabevi Yayınları, 2011. 277 seh.
14. Roger Savory. Safeviler devrinde İran. Çeciren Özgür Kolçak. 1.basım. İstanbul, Bilge Kültür Sanat, Eylül 2021. 292 seh.
15. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI начале XIX вв., Ленинград: ЛГУ, 1949, 379 с.

16. محمد طا شُ دّيذ ض ق یّ یٌ. عش شت ز گ شا □طا ث د مّ. ت ک شْش تاس عـ □ دْيت
ص ، 1374 ق لن لُ ا گُ ٌّی ف ش عْ اًشـشـه :شِای
17. مدمح طا شُ دّيذ ض ق یّ یٌ. □عا ث اُه ا ي شـشح ص اگَذ یً ٣٤ عال شا □طا ث ا ث یً )-
فـ ش چاخا :شِای ت ا ساگ، .یً گُا د يُن اتـ شا آق ای تـ ذ شی تـ ظذيـ خ ت . ٢٥٠٤ (٢٥٠٣
353 ص ، 9361دّيي
18. " د كّتاب فٍيظ اص سک هذا ا لّی "َ " خيـ سا ت فط یْ "" خلاط الت اْسيخ "" خيـ سا ت
ص ، 9331 ٍ. " ا ساک ک وال، هلا


УДК 94(479.24).


*Солмаз Адиль кызы Азимова*
*Бакинский Государственный Университет*


# КУЛЬТУРНАЯ ЖИЗНЬ ВО ВРЕМЯ ПРАВЛЕНИЯ ШАХА АББАСА II, СЕФЕВИДСКОГО ПРАВИТЕЛЯ АЗЕРБАЙДЖАНА

## *РЕЗЮМЕ*

*Ключевые слова:* Азербайджан, династия Сефевидов, Шах II Аббас, реставрационные и строительные работы, Казвин, Исфахан

Во времена династии Кызылбаш Сефевидов на территории империи непрерывно велись строительные работы, каждый правитель старался остаться в истории и памяти построенными им зданиями и архитектурными образцами. Памятники архитектуры, принадлежавшие династии Сефевидов, имели свои особенности. В отличие от соседней османской и могольской архитектуры, сооружение, построенное в стиле Сефевидов, отличалось уверенностью в себе и близостью к народу, а также изысканным убранством. "В королевскиих дворцах не практиковались возведения высокой стены, вместо этого они строились в самых оживленных и многолюдных районах города. Этим представители династии Сефевидов пытались доказать, что они близки народу, что ему верят и доверяют. Интересно, что еще во времена правления Ардебиля шейхи Кызылбашов высоко ценили культуру, старались собрать вокруг себя деятелей искусства и литературы, создавали в своих резиденциях всевозможные условия. Если мы посмотрим на период шаха Аббаса II (1642-1666), то увидим, что в этот период особое внимание уделялось реставрационным и строительным работам. Тот факт, что государство находится в периоде стабильности, а также проведение политики отказа от военных действий привели к прогрессу во всех культурных областях. Покровительство и особое внимание центральной власти, особенно правителя, привели к созданию памятников архитектуры в более изящной форме.

UDC 94(479.24).

*Solmaz Adil Azimova*
*Baku State University*

# CULTURAL LIFE IN AZERBAİJAN DURING THE REIGN OF THE SAFAVID RULER SHAH ABBAS II

*SUMMARY*

*Key words:* Azerbaijan, Safavids dynasty, Shah II Abbas, restoration and construction works, Qazvin, Isfahan

During the reign of the Qizilbash Safavid dynasty, construction works were constantly carried out on the territory of the empire, and each ruler tried to remain in history and memory with the buildings and architectural examples he built. The architectural monuments belonging to the Safavid dynasty had their own characteristics. Unlike the neighboring Ottoman and Mughal architecture, the Safavid style of construction was chosen for its trust and closeness to the people and elegant decoration. The practice of surrounding the royal palaces with a high wall was not applied, but instead they were built in the busiest and most crowded places of the city. With this, the representatives of the Safavid dynasty tried to prove that they were close to the people, that they believed in them and showed their trust. It is interesting that even during the rule of Ardabil, the Gilzilbash sheikhs highly valued culture, tried to gather art and literature figures around them, and created all kinds of conditions in their residences. If we look at the period of Shah Abbas II (1642-1666), we will see that special attention was paid to restoration and construction works during this period. The fact that the state was in a period of stability, as well as conducting a policy away from military operations, led to the progress of each of the cultural fields. The patronage and special attention of the central government, especially the ruler, led to the creation of architectural monuments in a more elegant way.

***Daxil oldu: 13.02.2025-ci il***